Azərbaycan Republikasının prezidenti İlham Əliyev cənablarına,

Surəti: Azərbaycan Respublikasının birinci Vitse Prezidenti Mehriban xanım Əliyeva,

Surəti: Məhkəmə-Hüquq Şurasının sədri Cənab Fikrət Məmmədov,

Surəti: "Mirzəyev və patniyorları" Vəkil Bürosunun Müdiri cənab Səyyad Mirzəyev,

Surəti: Azərbaycan Respublikası Vəkillər Kollegiyasına,

Surəti: Azərbaycan Respublikasının Milli Məclisinin sədri Sahibə xanım Qafarova,

Surəti: Azərbaycan Respublikası Baş Naziri cənab Əli Əsədov,

Surəti: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri cənab Fərhad Abdullayev,

Surəti: Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri cənab Sənan Hacıyev,

Surəti: BMT-nin Azərbaycandakı nümayəndəliyinə,

Surəti: UNİCEF-in Azərbaycandakı nümayəndəsi cənab Aleks Haykens

Şirvan Apellyasiya Məhkəməsinin icraatında olan 08.02.2022-ci il, saat 15:00-da keçirilmiş, № 2(106)- 3473/2021 saylı mülki iş üzrə, Lənkəran şəhəri, Sabir küçəsi ev 1/16 ünvanında yaşayan iddiaçı Nuriyeva Röya Əlipaşa qızı tərəfindən

# TƏŞƏKKÜR

Rəyasət Heyəti
Daxil olma № 438
«11» 02 2022

(elektron qaydada- nuriyeva_0101@mail.ru )

Möhtərəm prezidentim- İlham Əliyev cənabları, Sizə ulu öndərimiz Heydər Əliyevin cümlələri ilə müraciət etmək istəyirəm:

"Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda, günahsıza cəza veriləndə"

Hörmətli prezidentim, nəzərinizə çatdırmaq istəyirəm ki, 2018-ci ildə Masallı rayon 2 nömrəli N.Nərimanov adına tam orta məktəbdə müəllim kimi fəaliyyət göstərmişəm. 2019-cu ildən Lənkəran rayon Osaküçə kənd tam orta məktəbinə təyin olundum. İlk gündən məktəbin direktoru Arzu Mirzəyeva mənim vakant yerimi 2018-ci ildə satdığı (belə ki, vakant yer olduğu halda MİQ turlarına çıxarılmamış və işə qanunsuz olaraq müəllim təyin olunmuşdur), 2019-cu ildə isə dərs yükümü gizlətdiyi üçün mənimlə qərəzli münasibət saxlayırdı. 2020-2021 ci tədris ilində Lənkəran rayon Osaküçə tam orta məktəbinin direktoru Arzu Mirzəyeva barəsində Təhsil Nazirliyinə verdiyim şikayətlər sayəsində direktor Arzu Mirzəyevanın işə qanunsuz olaraq cəlb etdiyi öz tanışı Aytac Ələsgərli ilə bağladığı əmək müqaviləsinə xitam verildi. Bundan sonra direktor Arzu Mirzəyeva əlbir olduğu Lənkəran rayon Təhsil Şöbəsinin müdiri Ülviyyə Əliyeva ilə mənə düşmən kəsildilər.

İş yerimdə dəfələrlə şagird Diana Əliyeva tərəfindən döydürülmüşəm, bu barədə Lənkəran ŞRPŞ-nin təhqiqat bölməsində araşdırılma aparılıb. Şagird Diana Əliyeva üçün İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsi ilə dəfələrlə təqsirləndirilib. Lakin, 15 yaşı olduğu üçün formal sayılaraq məsuliyyətə cəlb olunmayıb. Bu bir faciədir. Mən bir Azərbaycan vətəndaşı, Azərbaycan qadını və Azərbaycan müəllimi olaraq bu faciəyə hələ də Təhsil Nazirliyinin niyə göz yummasını anlaya bilmirəm. Bütün dediklərimə sübutum olduğu halda, Təhsil Nazirliyi Lənkəran rayon Osaküçə kənd İ.Hüseynov adına tam orta məktəbinin direktoru Arzu Mirzəyeva barəsində heç bir tədbir görməyərək, internet səhifələrində əxlaqsızlıqla məşğul olması sübuta yetirilmiş şagirdi (Diana Əliyeva) müdafiə etməklə, ziyalı-təhsilli Nuriyeva Röya müəllimənin hüquqlarını rədd etməklə barəmdə verilmiş Lənkəran şəhər Təhsil Şöbəsi AR ƏM 70 ç maddəsini təmin etmişdir.

Nəticədə mənim ilə bağlanmış əmək müqaviləsinə 11.06.2021-ci il tarixdə böhtanla qanunsuz olaraq AR ƏM nin 70-ci maddəsinin ç bəndi ilə xitam verildi. Mən işə bərpa üçün Lənkəran Rayon Məhkəməsinə müraciət etdim, lakin Lənkəran rayon Məhkəməsinin hakimi Mütəllim İsayev şikayətimə obyektiv yanaşmadı və iddiamı əsassız saydı. Lənkəran rayon Məhkəməsinin 02.08.2021-ci il tarixli, 2(049)-2249/2021 saylı qətnaməsində intizam tənbehlərinin verilməsindən əvvəl işçiyə məlumat verilməsi qeyd edilsə də (heç bir məlumat verilməyib, hətta mən internet saytlarının birində töhmət almağım barədə məlumat oxuduqdan sonra məktəbin direktorundan intizam tənbehinin surətini tələb etmişəm, verilmədi. Bu haqda Təhsil Nazirliyinə teleqram (həmin çekləri də qoşma olaraq əlavə edirəm) da yazmışam ki, məni töhmətlə tanış etsinlər, amma heç bir məlumat olmayıb, Təhsil

Nazirliyi heç formal cavab belə verməyib, müəmmalı şəkildə ərizələrim hələ də baxılmamış sayılır), məlumatın verilməsini təsdiq edən sənədlər iş materiallarına əlavə edilməmiş, yalnız işəgötürən tərəfindən tərtib edilmiş aktlar əlavə edilmişdir. Halbuki həmin aktlar birtərəfli iradə ifadəsini ehtiva edir və istənilən an işəgötürən tərəfindən tərtib edilə bilər. İşəgötürən tərəfindən yazılı izahat verməyim tələb edilməmişdir, yazılı izahatın verilməsi ilə bağlı mənə rəsmi məlumat verilməmiş, yazılı izahatın verilməsindən imtina barədə akt birtərəfli qaydada tərtib olunmuşdur ki, nəticədə AR ƏM 187-ci maddəsinin tələbləri pozulmuşdur. Lənkəran rayon Məhkəməsinin hakimi Mütəllim İsayevin hansı maraqları üzündən iddiamın təmin edilməməsi çox müəmmalı bir sirr olaraq qalmışdır. Çünki, Lənkəran rayon Məhkəməsinin hakimi Mütəllim İsayev məsələyə obyektiv yanaşmadı birtərəfli mövqey nümayiş etdirərək, iclas prosesində hakimin gözü önündə Lənkəran şəhər Osaküçə kənd tam orta məktəbinin direktoru Arzu Mirzəyeva mənə və ailəmə təhqiramiz ifadələr işlədib şər atırdı, hakim heç bir müdaxilə etmirdi. Bütün dediklərimə sübut Lənkəran rayon Məhkəməsinin kameralarında var. İclasda anam və bacım da iştirak ediblər. İclas zamanı qarşı tərəf valideynimin şərəf və ləyaqətini alçaldan sözlərinə hakim heç xəbərdarlıq belə etmirdi.

Belə ki, Lənkəran rayon Məhkəməsinin 02 avqust 2021-ci il tarixdə qəbul etdiyi 2(049)-2249/2021 saylı qətnaməsindən etibarnamə üzrə nümayəndə və vəkilim Yusifli Şəhriyar Qurban oğlu tərəfindən verilmiş apellyasiya şikayəti üzrə məhkəmə baxışı iclası 08 fevral 2022-ci il tarixdə Şirvan Apellyasiya Məhkəməsində keçirildi. Qeyd etmək istəyirəm ki, Apellyasiya şikayətimdə qeyd olunan bütün faktlar öz təsdiqini tapmışdır.

Cənab prezidentim İlham Əliyev, "Mirzəyev və patniyorları" Vəkil Bürosunun hüquqşünası Yusifli Şəhriyar Qurban oğlu Sizin qüdrətli-demokratik Azərbaycan dövlətimizdə ədalətin bərqərar olunması etimadınızı tam olaraq doğrultdu. Lənkəran Rayon Məhkəməsi tərəfindən qəbul edilmiş 02 avqust 2021-ci il tarixdə qəbul etdiyi 2(049)-2249/2021 saylı qətnaməni ləğv elətdirərək, mən-Nuriyeva Röya Əlipaşa qızının işə bərpa və məcburi iş buraxma müddəti üçün əmək haqqı ödənilməsi barədə qətnamə qəbul edilməsində böyük təşəbbüs, əzm və savad göstərərək qanunun aliliyini qorumuşdur.

Bir Azərbaycan vətəndaşı, Azərbaycan qızı, Azərbaycan müəllimi olaraq "Mirzəyev və patniyorları" Vəkil Bürosunun hüquqşünası Yusifli Şəhriyar Qurban oğlu barəsində razılığımı Sizə ifadə etmək istəyirəm.

Cənab prezidentim, çox təşəkkür edirəm ki, Şəhriyar Yusifli kimi obyektiv, savadlı, qanun aliliyini , vətəndaşların hüquqlarını müdafiə edən gənc kadra etimad edərək bizim vətəndaşlıq və konstitusiya hüquqlarımızı üstün tutursunuz.

Qeyd etmək istəyirəm ki, mən Sizi özümə hər zaman mənəvi ata bilirəm. Birinci Vitse Prezidentimiz Mehriban xanım Əliyeva çıxışlarında qeyd etmişdir ki, "müəllimlər bu ölkənin güc mənbəyidir" Respublika üzrə Hüquq olimpiadasında fərqlənmə dərəcəli diplomla təltif olunmuş, BMT-nin Azərbaycandakı

nümayəndəliyinin, Ombudsman Aparatının və Təhsil Nazirliyinin birgə təşkil etdiyi kursda Uşaq hüquqları üzrə sertifikata layiq görülmüş, 1-ci sinifdən diplom qiymətlərimə qədər hamı 5(əla) olan bir müəllim kimi Sizə "Mirzəyev və patniyorları" Vəkil Bürosunun hüquqşünası Yusifli Şəhriyar Qurban oğlu barəsində təşəkkürümü ifadə edirəm və qeyd etmək istəyirəm ki, Şəhriyar Yusifli mən- Nuriyeva Röya Əlipaşa qızının pozulmuş hüquqlarını müdafiə etnəklə Sizin etimadınızı tam doğruldaraq qanunun aliliyini təmin etmişdir.

Qoşma:

Şəxsiyyət vəsiqəsi pdf formatda.

Hörmətlə, Nuriyeva Röya Əlipaşa qızı. (mob: 050-621-89-64) elektron qaydada müraciət- nuriyeva_0101@mail.ru
Tarix: 10 fevral 2022-ci il.

**office**

---

| | |
|---|---|
| **От:** | Röya Nuriyeva <roya01@internet.ru> |
| **Отправлено:** | 10 февраля 2022 г. 14:52 |
| **Кому:** | office@barassociation.az |
| **Тема:** | 'AR Vəkillər Kollegiyasının hüquqşünası Yusifli Şəhriyar Qurban oğlu barəsində T Ə Ş Ə K K Ü R' faylını sizinlə paylaşıram |
| **Вложения:** | AR Vəkillər Kollegiyasının hüquqşünası Yusifli Şəhriyar Qurban oğlu barəsində T Ə Ş Ə K K Ü R.docx |

--
Sent from Mail.ru app for Android